# GİZLİ GÜLLƏLƏNƏN ALİM – VƏLİ XULUFLU




**Vaqif YUSİFLİ,**
**filologiya elmləri doktoru**


**O, Azərbaycanın ən tanınmış alimlərindən, folklorşünaslarından biri idi. Keçən əsrin 20-30-cu illərində Salman Mümtaz və Hümmət Əlizadə kimi yorulmaz tədqiqatçılarla birgə el sənətinin tədqiqi, təbliği və toplanıb yazıya alınması üçün var qüvvəsini sərf edirdi. Türk dünyasına möhkəm tellərlə bağlı olan bu insan ensiklopedik biliyə malik idi - ərəb, fars, rus, türk dilləri ilə yanaşı, alman, türkmən, tacik dillərini də bilirdi. İsmayıl bəy Qaspralının "Dildə, fikirdə, işdə birlik" ideyasının reallaşması uğrunda qətiyyətlə mübarizə aparırdı - Yeni Türk Əlifbası komitəsinin fəallarından biri idi. Şura inqilabına qədər belə düşünürdü ki, Azərbaycanın istiqlalı müstəmləkə əsarətindən xilas olmağındadır. Ancaq çox keçmədən fikrini dəyişir, bolşevizmin təsirilə Rusiya Sosial-Demokrat Fəhlə partiyasının sıralarına daxil olur. Sanki gələcək qırmızı fırtınanın Azərbaycandan yan keçməyəcəyini dərk edir. İnqilab baş verdikdə Gəncədə Qəza Komitəsində çalışır, siyasi fəallığı ilə seçilir. Amma yaxın qohumlarından biri qaçaq idi, ona görə də tezliklə bolşeviklərin gözündən düşür, tutduğu vəzifədən azad olunur, firqə üzvlüyündən çıxarılır.**

Bu məlumatlar filologiya üzrə fəlsəfə doktoru, bir neçə sanballı elmi və publisistik əsərlərin müəllifi Rəhman Salmanlının "Gizli güllələnən alim" kitabından götürülüb. Rəhman müəllim bundan əvvəl Əhməd Cavadın həyat və yaradıcılıq yolunu əks etdirən bir kitab çap etdirmişdi, istiqlal şairinin həyat yolunun bir sıra açılmamış səhifələri canlandırmışdı. Ümumiyyətlə, Rəhman müəllim keçən əsrin əvvəllərində Gəncə bölgəsində baş verən hadisələri jurnalist inadkarlığı əks etdirməyə çox israrlıdır. Vəli Xulufluya həsr etdiyi kitabında da bu inadkarlıq öz bəhrəsini verib.

Vəli Xuluflu heç şübhəsiz, Azərbaycanın XX əsrdə yetirdiyi böyük ziyalılardan biridir. Xüsusilə, folklorşünaslığın ilk təməl daşlarını qoyan, bu təməl daşları üzərində yeni bir elm məbədinin ucaldılmasında əsl memar əməyi sərf edən bir fədaidir. Təbii ki, ədəbiyyatşünas alimlər -folklorşünaslar Vəli Xuluflunun elmi fəaliyyətini az-çox işıqlandırmışlar (2015-ci ildə Folklor İnstitutunda Vəli Xuluflunun anadan olmasının 120 illiyi təntənə ilə qeyd edildi).. Lakin onun bir insan kimi keçdiyi çətin və mürəkkəb həyat yolunun lazımınca və layiqincə əks olunmaması indiyə qədər narahatlıq doğururdu. Hər bir tanınmış elm və sənət adamının həyatının gizlinləri çoxdur və təkcə Vəli Xuluflunun deyil, başqa şəxsiyyətlərin də mükəmməl tərcümeyi-halının yaradılması mühüm məsələlərdən biridir. Rəhman Salmanlı bu işin öhdəsindən gəlməyə çalışmış, nəticədə Vəli Xülüflu obrazını canlandıra bilmişdir.

Vəli Xuluflu Şəmkir rayonunun Xuluf kəndində doğulmuşdu (1894), atası Məmmədhüseyn kişi zəhmətsevər bir insan idi. Əsasən maldarlıqla məşğul olurdu, yaxşı təsərrüfatçı itdi, ən böyük arzusu uşaqlarını təhsilli görmək idi. Vəli əvvəlcə bir kənd mollasının yanında yazıb-oxumaq öyrənir, sonra Gəncədəki mollaxanada təhsilini davam etdirir. Daha sonra böyük din xadimi Axund Hüseyn Pişnamazzadənin müdir olduğu Gəncə Müsəlman Ruhani seminariyasında oxuyur. Bu seminariya digər ruhani məktəblərindən seçilirdi, burada dünyəvi elmlər də tədris olunurdu. Seminariya təhsili onun gözlərini açır, amma o, din xadimi olmur. Onda siyasi şüur formalaşmağa başlayır. Və öncə qeyd etdiyimiz kimi üzv olduğu "İttihad" təşkilatından ayrılıb bolşeviklərin sıralarına qoşulur. Sonrasını sizə nəql etdik. Yeni quruluşun ilk zərbəsini hiss edəndən sonra Vəli Xuluflu bütün həyatını elmə sərf etməyi qərara alır. Bakıda ali təhsil ala-ala tələbə-tədqiqatçı kimi Azərbaycan folklor örnəklərinin toplanmasına və nəşrinə maraq göstərir və bu maraq get-gedə şiddətli bir elmi yaradıcılıq ehtirasına çevrilir. Bütün bu faktları Rəhman Salmanlı çox səliqəli şəkildə oxucuya çatdırır. O, Vəli Xuluflunu folklora, el ədəbiyyatına, aşıq sənətinə meyl göstərməsinin hələ uşaqlıqdan peyda olduğunu (babasından, nənəsindəin, atasından, nurani qocalardan eşitdikləri nağılların, rəvayətlərin, oxşamaların, bayatıların təsiri), bir də doğulduğu mühitdə aşıq məclislərinə gedib heyranlıqla qulaq asmasını, Gəncədə ruhani mədrəsəsində təhsil aldığı illərdə aşıq məclislərinə, toy şənliklərinə xüsusi həvəs bəslədiyini dönə-dönə qeyd edir. Hətta belə bir fakt nəzərə çarpdırır ki, Vəli Xuluflu sonralar Gəncədə orkestr və musiqi studiyasının yaradılmasının təşəbbüscüsü olur.

Ancaq təbii ki, müəllifi daha çox maraqlandıran onun Azərbaycan folkloru və türkologiya ilə bağlı əməli işləridir. 1920-30-cu illərdə Vəli Xuluflu latın qrafikalı yeni türk əlifbasına keçidin fəal tərəfdarlarından biri kimi "Yeni türk əlifbası ilə yazı qaydaları" adlı kitab nəşr etdirir.

Vəli Xuluflunu "Folklorşünaslıq elminin Koroğlusu" adlandıran Rəhman Səlmanlı onun "Koroğlu" dastanı ilə bağlı tədqiqatçılıq fəaliyyətini yaradıcılığının şah damarı adlandırır. 1927-ci ildə V.Xuluflu "Koroğlu" dastanını nəşr etdirir, iki il sonra isə tovuzlu Aşıq Hüseyn Bozalqanlının söyləməsi əsasında dastanı yeni qolları ilə təkrar nəşr edir. Və bu dastanın nəşri R.Salmanlının maraqlı açıqlamaları ilə bütün SSRİ məkanında böyük əks-səda doğurur. Hətta ermənilərin də "Koroğlu" dastanı yaratmaq istəmələri, amma V.Xuluflunun onlara rədd cavabı verməsi də diqqətdən yayınmır. R.Salmanlı kitaba folklorçu alimlərdən bir neçəsinin "Koroğlu" dastanı və ümumən folklorşünaslıq sahəsində V.Xuluflunun fəaliyyəti ilə bağlı məqalələrini də kitaba daxil etmişdir. Filologiya üzrə fəlsəfə doktoru Məhəmməd Məmmədov "Koroğlu" dastanının nəşrində Vəli Xuluflu mərhələsi" məqaləsində alimin "Koroğlu" ilə bağlı tədqiqatını, nəşri ilə əlaqədar fəaliyyətini geniş şərh edir, xüsusilə dastana yazılmış giriş sözündə V.Xuluflunun dastan haqqında bilgilərini nəzərə çarpdırır. Qeyd edir ki, V.Xuluflu folklorda çoxvariantlılığa, folklor mühitinə və folklorun pasportlaşdırılmasına, yerli dialekt və şivələrə xüsusi əhəmiyyət verməsinə maraq göstərirdi.

Başqa bir tədqiqatçı, filologiya üzrə fəlsəfə doktoru Sönməz Abbaslı Vəli Xuluflunun 1927-ci ildə çap etdirdiyi "El aşıqları" kitabından söz açır. Vəli Xuluflu bu kitaba Qurbani, Xəstə Qasım, Aşıq Ələsgər, Aşıq Hüseyn Şəmkir, Dədə Yadigar və aşıqların qoşma və gəraylılarını, həmçinin Aşıq Hüseyn Şəmkirlinin "Reyhan" dastanını daxil etmişdir. Tədqiqatçı Aynur Hüseynova isə Vəli Xuluflunun tərtib etdiyi "Tapmacalar" kitabından söz açır. Yazır ki, tapmacaların müxtəlif dərslik və jurnallarda dərc edilməsinə baxmayaraq, bu janrla bağlı bir boşluq var idi, onu az da olsa bir-birindən tərtib prinsiplərinə görə fərqlənən Vəli Xuluflunun "Tapmacalar" və ondan az sonra nəşr olunan Hənəfi Zeynallının "Azərbaycan tapmacaları" kitabları doldurur. İstər "El aşıqları", istərsə də "Tapmacalar" kitabında V.Xuluflu geniş müqəddimələrlə çıxış edir. Tədqiqatçı İlkin Eminovanın "Vəli Xuluflunun elmi fəaliyyətinin əsas istiqamətləri" məqaləsi də maraqlı faktlarla diqqəti çəkir. O, Azərbaycan folklorşünaslığının XX əsrin əvvəllərində artıq elmi prinsiplərə əsaslanan bir məktəb halında formalaşdığını, Azərbaycanı Tədqiq və Tətəbbö Cəmiyyətinin yaradılması ilə (onun əsas təşəbbüsçülərindən biri də Vəli Xuluflu olmuşdur) folklorşünaslıqda yeni bir mərhələnin başlandığını qeyd edir. Tədqiq və Tətəbbö Cəmiyyəti sonralar Azərbaycan Dövlət Elmi Tədqiqat İnstitutuna çevrilmiş və Vəli Xuluflu burada da qızğın fəaliyyət göstərmişdir. Bu məqalələr Vəli Xuluflunun yorulmaz fəaliyyətini dolğun şəkildə əks etdirir.




Rəhman Salmanlı Vəli Xuluflunun həyatında baş verən və illər keçdikcə onu repressiya çənginə keçirən hadisələri də diqqətlə izləmişdir. Niyə görə Vəli Xuluflu NKVD-nin "qara siyasi"nə düşür? Çünki o, türk xalqlarının vahid etnik mədəniyyətə, adət-ənənələrə, eyni dilə malik olduğunu və bu xalqlar arasında yaxınlaşmanın vacibliyini bir sıra yazılarında və çıxışlarında dəfələrlə vurğulamışdı, bu niyyətlə o, türk xalqlarının kompakt yaşadığı Krıma, Qazaxıstana, Özbəkistana, Başqırdıstana, Kazana, Türkmənistana, Qırğızıstana, Qaraqalpak Şuralar Cümhuriyyətinə səfərlər etmiş, bu ölkələrdə yaşayan elm adamları ilə görüşlər keçirmiş, mühazirələr oxumuş, fikir mübadiləsi aparmışdır, Alma-Ata və Daşkənddə keçirilən türkoloji qurultaylarda çıxış etmişdi. "Qara siyahı"ya düşmək üçün bunlar kifayət idi. NKVD unuda bilməzdi ki, V.Xuluflunun rəhbərlik etdiyi Azərbaycanı Tədqiq və Tətəbbö Cəmiyyətində əsasən türkçülüyü təbliğ edən qüvvələr toplanmışdı və onların səyi ilə 1926-cı ildə Bakıda 1-ci Türkoloji qurultay keçirildi. Bu qurultaya 131 nəfər nümayəndə və xeyli qonaq gəlmişdi (Türkiyədən Əli bəy Hüseynzadə, Fuad Köprülüzadə, Rusiyadan akademik Bartold və s.). Vəli Xuluflu da daxil olmaqla Azərbaycan türkoloqlarının ən böyük tarixi uğuru -qurultay iştirakçılarının türkdilli xalqların latın əlifbasına keçidinə dair qərar qəbul etməsi idi. Rəhman Salmanlı bütün faktları bircə-bircə nəzərimizə çatdırır və yazır ki: "Rejim bu vətənpərvər alimi hay-küysüz həbs etmək üçün məqam, bəhanə axtarırdı. Amma ortada tutarlı bir fakt yox idi. Lakin Stalin xalq və yeni quruluşun düşmənləri adı altında milyonlarla insanın ölümünə səbəb olan repressiya maşınını var gücü ilə işə salanda Vəli Xuluflunun da əksinqilabçı və millətçi təşkilatın üzvü olduğu qeyd edilərək, tezliklə həbs edilməsi nəzərdə tutulur. Çox çəkmir ki, "vəzifə borcunu" daha operativ yerinə yetirən DTK-nın 4-cü şöbəsi tərəfindən 1937-ci il yanvarın 28-də gecə həbs edilir. Böyük alimin həbs olunması barədə qərarı NKVD-də məsul vəzifə tutan, həmin dövrdə azərbaycanlılara qənim kəsilən erməni Sumbatov və onun əlaltısı Qalstuyan imzalayırlar". Vəli Xuluflu istintaqda qəti surətdə əksinqilabi millətçi təşkilatın üzvü olduğunu rədd edir, ancaq nə faydası, o, yeni quruluş üçün təhlükəli düşmən kimi güllələnir. Vəli Xuluflu ilə yanaşı, eyni gündə türkoloq alim Bəkir Çobanzadə, istiqlal şairi Əhməd Cavad da güllələnir. 1937-ci il, oktyabrın 13-dən 14-nə keçən gecə ölüm hökmü icra edilir.

Kitabda Vəli Xuluflunun ailə həyatından, övladlarından da söz açılır və fikrimcə, bu hissə kitaba xeyli dərəcədə bir sanbal gətirir. Repressiya qurbanlarının ailələri də təqib olunurdu, çox zaman bu ailə üzvləri də həbs edilirdi. Vəli Xuluflunun həyat yoldaşı Fatmanisə evdar qadın idi, onların ailəsində üç uşaq dünyaya gəlmişdi, oğlanları Çingiz və Sunduz məktəbli idilər. Az sonra Fatmanisəni işlədiyi tikiş sexindən qovurlar, daha sonra vətən xaininin həyat yoldaşı kimi həbs edirlər. Günahsız qadın evindən, qoca anasından, azyaşlı övladlarından ayrı düşür, Rusiyanın Volqaboyu ərazisindəki Potma islah-əmək düşərgəsinə göndərilir. Yalnız 1946-cı ildə Fatmanisə xanım azadlığa buraxılır, sular durulanda, ölkədə stalinizm süquta uğrayanda Vəli Xuluflu ölümündən sonra bəraət almış, hüquqları bərpa olunmuşdu.

Qızı Sima xanımın xatirələri də kitabda Vəli Xuluflunun obrazının daha dolğun əks olunmasında mühüm rol oynayır. Və bu sanballı kitabda Vəli Xuluflu və onun ailə üzvləri ilə bağlı fotolar da bu obrazı bir qədər də tamamlayır. Xuluflular Vəli Xuluflunun - bu böyük alimin qoyub getdiyi mənəvi keyfiyyətləri-saflığı, təmizliyi yaşadırlar.

**Tədqiqatçı Rəhman Salmanlıya isə bol-bol təşəkkür düşür ki, Azərbaycanın bu böyük ziyalısı professor Vəli Xuluflunun mükəmməl obrazını öz kitabında canlandırdı, ölməz bir insanı bizə tanıtdı.**